

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 211 (24.348)

*15 noyabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək həmin tədbir çərçivəsində Özbəkistan Prezidenti ilə görüşünü məmnunluqla xatırladı.

Dostluq və qardaşlıq münasibətlərimizin gündəliyinin çox geniş olduğunu və müxtəlif istiqamətləri əhatə etdiyini deyən Prezident İlham Əliyev iqtisadi, sənaye, o cümlədən sənaye kooperasiyası, kənd təsərrüfatı və digər sahələrdə nəzərdə tutulan birgə layihələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfəri zamanı qarşıdakı illərdə əməkdaşlığın gündəliyi və qarşıya qoyulan məqsədlərə nail olunması ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi.

Laziz Kudratov, ilk növbədə, Özbəkistan Prezidentinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycan və Özbəkistan prezidentləri arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxması üçün möhkəm əsas yaratdığını bildirdi, hər iki dövlət başçısının qarşılıqlı səfərlərinin və görüşlərinin strateji əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.

Laziz Kudratov vurğuladı ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar və əhalinin rifah halının daha da yaxşılaşdırılması Özbəkistanda böyük sevinc doğurur. Qonaq, eyni zamanda qeyd etdi ki, özbək xalqı Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunmuş hərbi paradı qürur hissi ilə izləyib. Azərbaycan Prezidentinin qətiyyəti və möhkəm iradəsi, uğurlu siyasəti nəticəsində tarixi ədalətin bərpa edilməsinin mümkün olduğunu vurğulayan Laziz Kudratov Şuşa və Füzuliyə səfərləri zamanı orada gedən böyük yenidənqurma və bərpa işlərinin şahidi olduğunu dedi.

Görüşdə sənaye kooperasiyası, iqtisadi, ticari, nəqliyyat, logistika əlaqələrinin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**



## Naxçıvan Muxtar Respublikasının Baş naziri Milli Məclisdə keçirilən plenar iclasda iştirak edib

13-14 noyabr tarixlərdə Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsi layihəsinin və büdcə zərfinə daxil olan sənədlərin müzakirəsi ilə əlaqədar növbəti plenar iclas keçirilib.

Plenar iclasda Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov iştirak edib. Naxçıvan Muxtar Respublikasının büdcəsi ilə bağlı məlumat verən Baş nazir bildirib ki, 2024-cü ildə muxtar respublika büdcəsinin gəlirləri 173,1 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 20,9 milyon manat və ya 13,7 faiz çoxdur. 2024-cü il üçün muxtar respublika büdcəsində proqnozlaşdırılan dotasiyanın məbləği 343,3 milyon manat nəzərdə tutulur ki, bu da 2023-cü il üçün muxtar respublika büdcəsində təsdiq olunmuş dotasiya məbləğindən 109,5 milyon manat və ya 24,2 faiz azdır. Gəlirlərinin tərkibində əsas payı 30,4 faizlə əlavə dəyər vergisi, 24,6 faizlə fiziki şəxslərin gəlir vergisi, 29,1 faizlə aksiz vergisi və 15,9 faizlə isə digər vergilər üzrə daxilolmalar və rüsumların təşkil edəcəyi proqnozlaşdırılıb. Həmçinin qeyd edilib ki, 2023-cü ildə muxtar respublika büdcəsinin xərcləri 605 milyon manat məbləğində təsdiq olunmuşdur. 2024-cü il də isə Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri 516,4 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü ilin büdcəsi ilə müqayisədə 88,6 milyon manat və ya 14,7 faiz azdır.

Səbuhi Məmmədov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti növbəti dövrlərdə də büdcə gəlirlərinin maksimum səviyyədə artırılması hesabına mərkəzi büdcədən muxtar respublikaya ayrılan dotasiyanın həcminin azaldılması üçün ciddi işlər aparmaqla müvafiq tədbirlər həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Oktyabr ayı ərzində muxtar respublikada 917 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

Muxtar respublikada daşınmaz əmlakın dövlət reyestrinin və kadastrının aparılması, torpaqların dövlət idarəetməsinin təşkili, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti cari ilin oktyabr ayında da diqqətdə saxlanılıb, müvafiq fəaliyyət istiqamətləri üzrə görülən işlərin operativ icrası təmin edib.

Hesabat ayı ərzində vətəndaşlardan daxil olan müraciətlərə əsasən 917 daşınmaz əmlaka dair mülkiyyət hüquqları dövlət reyestrində qeydiyyata alınıb. Texniki sənədlərin hazırlanması zamanı 244 əmlaka dair texniki pasport, 419 torpaq sahəsinə dair plan-ölçü tərtib olunub, ümumilikdə, 663 texniki sənəd hüquq sahiblərinə təqdim edilib. İlkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 89 daşınmaz əmlaka ünvanlar verilib. Həmçinin muxtar respublikada Ünvan Reyestri İnformasiya Sisteminin formalaşdırılması, ünvan məlumatlarının yenilənməsi və sistemləşdirilməsi məqsədilə poçt məntəqələrinin əhatə etdiyi ərazilərin sərhədləri dəqiqləşdirilərək xəritələşdirilib, Naxçıvan şəhərinin, Əliabad qəsəbəsinin və şəhərin 5 kəndinin ünvan xəritələrinin layihəsi hazırlanıb.

Vətəndaşların müraciətləri nəzərə alınaraq ötən ay əmlaklarının məhdudiyyət və yüklülüyünə dair 215 arayış verilib, elektron informasiya sistemi vasitəsilə əmlaklara dair məhdudiyyət və yüklülük haqqında notariat ofislərinə göndərilən məlumatlar isə 499 ədəd təşkil edib.

Hüquqi və fiziki şəxslər tərəfindən operativ şəkildə fəaliyyət göstərən elektron xidmətlərə 92, notariat ofisləri tərəfindən 26 müraciət daxil olub ki, həmin müraciətlər də qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilib. Müraciətlərə vaxtlı-vaxtında baxılması "ASAN xidmət" Mərkəzində göstərilən xidmətlər zamanı da diqqətdə saxlanılıb, müvafiq xidmət növləri üzrə, ümumilikdə, 840 müraciət icra üçün qəbul edilib.

Ötən ay ərzində kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 870 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib, ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib.

Oktyabr ayında təşkil olunan səyyar xidmətlər zamanı Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarının bir sıra yaşayış məntəqələrində vətəndaşlara xidmət göstərilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Muxtar respublikada sosial, iqtisadi, sənaye, energji və digər sahələrin sürətli inkişafını, o cümlədən əhalinin son illərdə elektrik enerjisinə artan tələbatını qarşılamaq üçün operativ işlər görülür. Alternativ və bərpaolunan enerji mənbələrindən düzgün istifadə etməklə istehsalın həcmi artırılır.*

## "Culfa" sistem əhəmiyyətli yarımstansiyasında son tamamlama işləri aparılır



Bu tədbirlərin davamı olaraq Culfada sistem əhəmiyyətli yarımstansiya qurulur. Sistem əhəmiyyətli yarımstansiyaların qurulması digər transformatorların yükünü stabilləşdirməyə, qəzaların qarşısını almağa, itkiləri kompensasiya etməyə və dayanıqlılığın artırılmasi baxımından çox əhəmiyyətlidir. Eyni zamanda qəza rejimində yükün bir yarımstansiyadan digər yarımstansiyanın üzərinə köçürülməsi, istehlakçıların daha keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi üçün yarımstansiyaların yenidən qurulması olduqca vacibdir.

Yeni 132/110/35/10 kilovoltluq "Culfa" sistem əhəmiyyətli yarımstansiyası Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikasının enerji sistemini əlaqələndirir. Yarımstansiya açıq paylayıcı quruluş, inzibati bina və yaşıllıq zolağı daxil olmaqla, 1.1 kvadrat kilometr ərazini əhatə edir. Yarımstansiyanın tikinti işləri 2021-ci ilin sentyabr ayından başlayıb. Açıq paylayıcı quruluşda olan və inzibati binanın daxilində olan yüksəkgərginlikli kommutasiya qurğuları dünya standartlarına cavab verən məşhur markaların məhsullarıdır. Yarımstansiyanın daxili elektrik tələbatını ödəmək məqsədilə inzibati binanın dam örtüyünə ümumi gücü 15 kilovat olan günəş panelləri quraşdırılıb. Yeni yarımstansiya, həmçinin Culfa və Ordubad rayonlarının elektrik təchizatında əvəzolunmaz rola malik olacaq. Naxçıvan Muxtar Respublikasının gündəlik



enerji infrastrukturu nəzərə alınaraq yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulub.

Hazırda yarımstansiyanın tikinti-quraşdırma işləri tamamlanıb. 10 kilovoltluq çıxış fiderləri çəkilərək istismara hazır vəziyyətə gətirilib.

**Fariz ƏHMƏDOV**

## Naxçıvanda aktiv vergiödəyicilərinin sayı artıb

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətindən verilən məlumata görə, Naxçıvan Muxtar Respublikasında noyabr ayının 1-nə aktiv vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 13,7 faiz artaraq 14.273 olub. Hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 22,5 faiz artıb və 413 təşkil edib. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə ilin əvvəli ilə müqayisədə 17 faiz artaraq 5.206-ya çatıb.

**Xəbərlər şöbəsi**



# Xalqının müzəffər Lideri

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqına 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirdi, mühüm işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını diqqətə çatdırdı: ***"Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

2003-cü il oktyabrın 15-də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevi xalqımız Azərbaycana Prezident seçməklə ölkəmizin inkişafı, tərəqqisi və milli maraqlarımızın qorunması missiyasını Ona həvalə etdi. Bununla Azərbaycan xalqı həm də Heydər Əliyev siyasi kursuna səs verdi və Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

Prezident cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı son dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Ölkə başçısı cənab İlham Əliyev Azərbaycanın dinamik inkişafını, tərəqqisini, çiçəklənməsini verdiyi praqmatik qərarlarla, imzaladığı sərəncam və fərmanlarla təmin edən qurucu, intellektual, bacarıqlı dövlət xadimi olduğunu bütün dünyaya nümayiş etdirdi.

Ötən dövr Azərbaycanda bütün istiqamətlərdə böyük inkişaf, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşahidə olundu. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayandı.

Aparıcı dünya dövlətləri Cənubi Qafqazın tərəqqi və yüksəlişini Azərbaycandan kənarda görmür, respublikamızın mövqeyi ilə tam hesablaşırlar. Ölkəmiz düşünülmüş neft strategiyası ilə, ümumən, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan strateji əhəmiyyətli dövlətə çevrilir. Müstəqil daxili və xarici siyasət yeridən ölkə rəhbərliyi milli maraqlarımızı layiqincə müdafiə edərək bütün təhdidləri aradan qaldırdı.

Prezident cənab İlham Əliyevin ötən dövrdə verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirməsi, xalqımızın Ona olan sevgisini artırdı, yürütdüyü xarici siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını çoxaltdı. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət etdi. Milli mənafelərlə bağlı problemlərin həllinə həssas və fəal yanaşma uzaq və yaxın xaricin də diqqətindən yayınmadı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur.

Əsrə bərabər 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan xalqı öz liderinin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü.

Prezident cənab İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi.

Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev, ***"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur"***, – deyən Ulu Öndərin arzusunu reallaşdırdı: ***"Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"*** Ölkə Prezidenti cənab İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlıda böyük sevinc və qürur hissləri yaratdı. Bu böyük qələbə, eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. ***"Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir"***, – deyən Prezidentimizə olan inamı, sevgini birə-beş artırdı.

***"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*** Ulu Öndərin Prezidentimiz cənab İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğuna şahidlik edirik. Bu isə o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir.

Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən liderləri olur. Cənab İlham Əliyev xalqın alternativsiz lideri, xilaskarıdır.

**Ülviyyə HƏMZƏYEVA**
***Azərbaycan Respublikası Milli Məclisinin deputatı***

## BMT-nin Uşaq Fondu UNICEF-in nümayəndə heyəti Naxçıvanda səfərdədir




Heyətin Naxçıvan şəhərində keçirilən görüşündə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov təşkilatın nümayəndə heyəti ilə görüşüb. Görüşdə Samiq Sadıxov muxtar respublikada səhiyyə sahəsində reallaşdırılan islahatlardan və görüləcək işlərdən bəhs edib. Vurğulanıb ki, ölkə rəhbərinin apardığı siyasətin təzahürü olaraq səhiyyə sahəsində də əsas məqsəd vətəndaşlara keyfiyyətli tibbi xidmət göstərməkdir. Muxtar respublika rəhbərliyi də səhiyyə sisteminin formalaşdırılması, islahatların yüksək səviyyədə aparılması üçün səylərini əsirgəmir. Qonaqlar ötən aylar ərzində muxtar respublikamızda səhiyyə sahəsində yerinə yetirilən işlər barəsində məlumatlandırılıb. Bildirilib ki, ölkənin səhiyyə sistemində ən önəmli məsələ ilkin səhiyyədir. Vətəndaşların yüksək tibbi xidmətlərdən yararlana bilməsi məqsədilə 37 ailə sağlamlıq mərkəzi, muxtar respublikanın bütün kəndlərində tibb mərkəzləri, eyni zamanda tərkibində peyvənd mərkəzi olan ictimai səhiyyə xidməti yaradılıb. Vurğulanıb ki, yaxın zamanda istifadə ediləcək smart peyvənd sistemi uşaqların peyvənd olunması prosesini asanlaşdırmaqla yanaşı, peyvənddən kənarlaşma hallarının qarşısını alacaq.

Görüşdə muxtar respublikada səhiyyə sisteminin gələcək perspektivlərindən də bəhs olunub. Xidmətin ən yüksək şəkildə təmin olunması üçün nəzərdə tutulan layihələr də qonaqlara təqdim edilib. Təcili Yardım korpusu, Ailə Sağlamlıq Mərkəzi, Ağız-Diş Sağlamlıq Mərkəzinin yaradılması üçün fəaliyyətə başlanılıb.

Sonra qonaqlar Perinatal Mərkəzlə və Ordubad Ailə Sağlamlıq Mərkəzi ilə tanış olublar.

Naxçıvan Muxtar Respublikasına səfər edən Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) –Azərbaycandakı Nümayəndəliyinin Səhiyyə və Qidalanma proqramının rəhbəri Töhfə Cəmilova və Erkən uşaqlıq dövrü inkişaf konsultantı Yelena İsrafilova Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova ilə görüşüb.

Görüşdə qonaqları salamlayan komitə sədri qeyd edib ki, ölkəmizdə həyata keçirilən dövlət uşaq siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün ölkə Prezidenti



cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. Muxtar respublikada uşaq hüquqlarının qorunması, bu istiqamətdə görülən işlərin prioritetlər sırasında olduğu və ölkədə həyata keçirilən dövlət uşaq siyasətinin muxtar respublikada da uğurla həyata keçirildiyi bildirilib. Ramilə Seyidova muxtar respublikada yaşayan uşaqlar, o cümlədən sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, tək valideynli uşaqların hüquqlarının qorunması ilə bağlı komitə tərəfindən mütəmadi görülən işlər, aparılan monitorinqlər, maarifləndirici tədbirlər haqqında ətraflı məlumat verib və UNICEF-in Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlığın vacibliyini vurğulayıb.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun – UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin Səhiyyə və Qidalanma proqramının rəhbəri Töhfə Cəmilova, Erkən uşaqlıq dövrü inkişaf konsultantı Yelena İsrafilova erkən uşaq dövrü inkişaf yol xəritəsinin vacibliyindən, muxtar respublikada fəaliyyət göstərən qurumların koordinativ formada fəaliyyətinin zəruriliyindən, eyni zamanda valideynlərin, sosial işçilərin, psixoloqların uşağın inkişafındakı rolundan, muxtar respublikada yaşayan valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqların vəziyyətindən, onlarla bağlı



görülən işlərdən söhbət açıb, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) – Azərbaycandakı Nümayəndəliyi tərəfindən icra olunan layihələr və keçiriləcək təlimlər haqqında məlumat verilib, uşaqlarla bağlı mövcud problemlər müzakirə olunub, gələcək perspektivlər barədə fikir mübadiləsi aparılıb.

BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin Səhiyyə və qidalanma proqramının rəhbəri ***Töhfə Cəmilova*** "Şərq qapısı" qəzetinə müsahibəsində qısa zaman kəsiyində muxtar respublikada yerinə yetirilən islahatları və layihələri yüksək qiymətləndirib: – Naxçıvana üçgünlük səfərimiz bu gün etibarilə başladı. Bu günə kimi görülən işlər, səhiyyədə yeni təşəbbüslər haqqında məlumatlar əldə etdik. Dar zaman çərçivəsində bu dərəcədə əhəmiyyətli işlərin reallaşması, yeni başlanğıclar ümidvericidir. Bu istiqamətdə işlər davam edərsə, əminik ki, Naxçıvan səhiyyəsi örnək hesab ediləcək. Bu nümunədən isə ölkəmizin bütün bölgələrində yararlanmaq mümkün olacaq. Bu gün BMT-nin Uşaq Fondunun "Səhiyyə və qidalanma" proqramı ilə əməkdaşlıq istiqamətlərini də müzakirə etdik: iki qurum olaraq hansı sahələrdə təcrübələrimizi bölüşə bilərik, bir-birimizə necə dəstək ola bilərik? Xüsusilə bizim mandatımıza uyğun olaraq ana və uşaq sağlamlığı məsələləri prioritet təşkil edir. Bu baxımdan ilkin səhiyyə xidmətlərində, tibbi kadrların bilik və bacarıqlarının artırılması əsas məsələləri təşkil edir. Hamilə qadınlara, doğuşa yardım xidməti göstərən müəssisələrdə də UNICEF-in tövsiyələrinə uyğun olaraq yeni təşəbbüslərin tətbiqi mümkündür. Məhz bu baxımdan biz əməkdaşlıq etməkdən məmnun olacağıq.

**Aysel YUSİFZADƏ**
**Gülcamal TAHİROVA**

## Ombudsman Naxçıvan Qızlar Liseyində olub

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva "Uşaq hüquqları aylığı" çərçivəsində Naxçıvan Qızlar liseyində olub.*

Şagirdlərlə görüş zamanı Ombudsman Günay Rzayeva İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə ənənəvi olaraq 20 ok-



tyabr-20 noyabr tarixlərdə BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində respublikamızda "Uşaq Hüquqları aylığı" elan edildiyini, aylığın keçirilməsində məqsədin uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının qorunması olduğunu, ölkəmizdə sosial sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinin uşaqların hüquqlarının təmin edilməsi, uşaq problemlərinin ardıcıl həlli olduğunu vurğulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı tərəfindən hazırlanmış "Sağlamlıq imkanları məhdud uşaqların hüquqi müdafiəsi" adlı məlumat kitabçasının və "Mənim hüquqlarım" adlı vəsaitin təqdimatı keçirilib.

Tədbirin sonunda uşaq hüquqları sahəsində fikir mübadiləsi aparılıb, suallar Müvəkkil tərəfindən cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Salam gətirmişəm sənə, ey ulu türkün yurd-yuva qurduğu qədim diyar, Azərbaycan! Salam gətirmişəm həsrətin, hicranın vüsal çələngindən, o taylı, bu taylı Azərbaycanın, min illər boyu sərvətləri yağmalanan, xalqının azadlığı, müstəqilliyi əlindən alınan, torpaqları çapılıb-talanan, milli soykökünə kölgə salınan Odlar yurdunun qəhrəmanlığından, mübarizliyindən, el atası Dədə Qorqudun xeyir-duasından, Banu Çiçəklə Beyrəyin əhdi-peymanından, Qaraca Çobanın ağasına sədaqətindən, bəy şalına bayramlıq bağlayan adaxlı qızın arzusundan, niyyətindən, illərdir, gözü yollarda qalan soydaşlarımızın "qərib Vətən" harayından. Xan Arazın nalə qoparan sükutundan, Xaqaninin Şirvanından, Nizaminin Gəncəsindən, Xan qızı Natəvanın Qarabağından, Cavanşirin, Babəkin qüdrətindən, dili bir, amalı bir, əqidəsi bir Vətən övladlarının ləblərindən süzülən kəlmələrdən salam gətirmişəm sənə. Bir də salam gətirmişəm anasından ayrı düşən biçarə övladtək çarəsizcə boylanan, baxan, əl uzadanda əli çatmayan, haray qoparanda ünü yetməyən Naxçıvanın qəlbində boğulub qalan bütöv Azərbaycan həsrətindən...*

# Azadlıqdır sənə məlhəm, mənə dərman, AZƏRBAYCAN!



Ey Vətən, ey əcdadlarımıza yurd-yuva olan, dostlarımıza pənah yeri, düşmənlərimizə qorxu salan qədim diyar, Azərbaycan! Köksündə böyüyüb ərlik göstərən, min illər boyu hər bir qarış torpağına, elinə, obana sahib çıxan ər-ərənlərin şah qamətindən xəbərin varmı? Hər sabahı Qapıcıq dağının fövqündən boylanan Günəşin al şəfəqləri ilə qarşılayan Nuhçıxanın, Bakın, Gəncən, Şamaxın, hər bir guşən inkişaf edib, yenilənib. Bu eldə-obada yaşayan, ömrünü zəhmətə, alın təri ilə halal çörək qazanmağa həsr edən övladların oğul-uşaq sahibi olub, hər ocaqda, hər yurd-yuvada bir igid əsgər böyüdüb, sənə, mənə, bizə, qəlbində Vətən daşı olan bütün soydaşlarımıza arxa-dayaq, ümid yeri yetişdiriblər. Böyüyəndə əcdadlarından onlara miras qalan elin, yurdun, namusunu qorusunlar deyə qulaqlarına "Polad" adı çağırılıb, düşmənə qorxu, nifrət, dosta bəxtəvərlik, ucalıq versinlər deyə adlarına "Mübariz" deyilib, başım üstə məğrur-məğrur dalğalanan bu ay-ulduzlu bayrağı özlərinə can, ruhum üçün, cismim üçün Vətən olan şəhid qoxulu torpağı müqəddəs and yeri biliblər. Düşmənin yurdumuza uzanan əllərini kəsib, məkrli istəklərini qəlblərində puç ediblər, son anlarında, son məqamlarında belə "Azadlıqdır sənə məlhəm, mənə dərman, Azərbaycan" söyləyiblər. Bir an belə olsun geri çəkilmədən, qorxmadan, çəkinmədən, "ya Qarabağ, ya ölüm!" şüarını dillərində əzbər etməklə tarix olublar, qələbədən, müvəffəqiyyətindən, rəşadətli Azərbaycan Ordusunun şanlı Zəfərindən xəbərin varmı, Vətən?





Salam, Qarabağ! Ey dostunu, düşmənini hər birimizdən daha yaxşı tanıyan, qəlbi sinədəftər, ruhu da, cismi də Azərbaycan olan məmləkətim. Otuz ildir, "azad Vətən" sözünə həsrət qalan qulaqlarında bu gün "Allahu Əkbər!" sədası səslənir, o müqəddəs dinindən, imanından xəbərin varmı? Bağrında Xan qızı Natəvanın toy-büsatın quran, Üzeyir bəyin qəlblərimizi riqqətə gətirən musiqilərinə şahid olan, məmləkətim, güllələnmiş heykəllərin köksündə açılan yaralara məlhəm olmağın acısı azmı yordu səni, azmı incitdi hər birimizi? Otuz il ərzində sərvətləri talanan, maddi mədəniyyət nümunələri, bədii irsi təcavüzlərə məruz qalan bir diyarın haqq səsi olmaq, əyyaş düşmənin Cıdır düzündə at oynadıb, rəqs etməsinə şahidlik etmək yalnız sənin yox, hər bir soydaşımızın duz basılan, qaysaq bağlamayan yarasıdır. Amma belə bir deyim var, söyləyirlər ki, hər qaranlıq gecənin də bir aydın sabahı olur. Bu aydın sabahlar Azərbaycan xalqı üçün parlaq bir Günəştək doğdu. Dünyanın nizam-intizamı belədir; bir yanda Günəş çıxanda, zülmət gecələr aydınlığa qovuşanda, digər tərəfdə işıqlı səmalar qaranlığa qərq olar. Sənin də taleyindən qaranlıqlar sovuşub yerinə parlaq səhərlər gələndə, digər tərəfdə düşmənin qanlı-qadalı günləri başladı. Bir zamanlar "dağlarda toy" edənlərə Azərbaycan Ordusu elə bir toy tutdu ki, səsi məğribdən məşriqə gedib çatdı, Qarabağ torpağında kök salmaq istəyən düşmən toysuz, düyünsüz gəldiyi yerə geri qayıtdı. Halbuki işğalçı niyyətlə yurdumuza gələndə "toy-büsatla" gəlmişdilər… Bu gün sənin qoynunda xalqımızın mərd, igid oğulları uyuyur, toy havası çalınmamış, övladından "ata" kəlməsini eşitmədən əbədiyyətə qovuşmuş, tarix olmuş, yarım qalmış həyatlar uyuyur, şəhidlər, fədailər uyuyur. Düşmənin qəlbinə dağ çəkib, dünyaya hərb dərsi verən, sözdə şücaət göstərənlər yox, elə hər kəlməsi, hər sözü, yerişi, duruşu əməldə şücaət, cəsarət olanlar uyuyur. Hər bir qarış torpağın, daşın isə bu gün oyanıb, aydın sabahlarından, gülüstanlı gün-güzəranından xəbərin varmı?

Salam, şəhidim! Peyğəmbər qoxulu cənnətin necədir? Öz canınla, qanınla düşmənə sinə gərib tarix yazdığın, yalnız ailənin yox, bütöv Azərbaycan xalqının başını uca etdiyin üçün Uca Yaradan, əlbət ki, mükafatlandırıbdır səni! Deyirlər, şəhid cənnətinə ayaq basanda Allah bütün məhşəri qaldırar onun ayağına, hələ bu dünyadaykən sevdiyi, əziz tutduğu istəkli bəndələrini göndərər şəhidinə tərəf. Qalxın, əbədi həyatın, şəhadətin ləzzətini duyan bu gəncə ehtiram göstərin söyləyər. Bu olsa gərək ən ali mükafatın. Cənnətdəki mübarək ruhun bizləri seyr etdikcə, daim şad olsun! Hələ sağlığında yaddaşlarda buraxdığın xoş xatirələr isə kəlmələrə çevrilər, oradan da göz yaşı olub yanaqlara süzülər. Kimisi ömrünün ən gözəl çağında yolunu kəsən fələyi lənətləyər, yeri, göyü təqsirkar bilər. Kimisi səndən sonra dünyaya gələn övladına sənin adını verir, qoy atası kimi qəhrəman, igid oğul olsun söyləyir. Qara libaslara bürünən, qara şal içərisində sanki ondördgünlük ayı xatırladan bir nur üz "mənim oğlum qəhrəmandır, mərddir, igiddir, südüm ona halal olsun", – deyər. Vaxtsız solan gül-çiçəkdən, qəlbimizdə qubar bağlayan yaralardan, nisgillə keçən günlərdən, qəm-qüssədən xəbərin varmı? Qisası qiyamətə qoymayan döyüş yoldaşlarının hünərvərliyindən, "dəmir yumruq" olub hər biri bir Polada, Mübarizə, Fəridə bərabər olan igidlərimizin ər meydanında qoç Koroğlunu xatırladan cəngindən xəbərin varmı? Bizim üçün, geridə buraxdığın ailən üçün heç darıxma, nigaran da qalma, şəhidim. Zaman gələr boş qalan qucaqlarda yenidən qəhrəman oğullar, qızlar böyüyər, bağça-bağlar bar gətirər, var yetirər. Qərib quşlar dönər isti yuvasına. Bir vaxt da gələr Qarabağda olduğu kimi, o taylı, bu taylı el-obamızın görüşünə gedərik, Zəngəzur elində bir tonqal qalayıb Oğuz elini toy-bayrama çağırarıq, ana-nənələrimiz təndir salar, çörək açar, bir ocaq başında isinər, "könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!" söylərik.

Salam, ey ana Vətənim, Azərbaycan! Yenə qəlbim sözlərlə, xoş arzularla, niyyətlərlə doludur, bu şad halımdan xəbərin varmı? Yenə işıqlı sabahından, uğurlarından, hər günü bir tarixə bərabər olan nailiyyətlərindən yazmaqla fəxr edir, öyünürəm. Axı necə öyünməmək olar? Mənim millətlər içində millətim, dövlətlər içində dövlətim, xalqımın, Azərbaycanımın imzalar içində imzası, adlar içində adı var: Azərbaycan! Hər daşına, torpağına, hər ləçəyi asimana, Tanrı dərgahına duaya qalxan xarıbülbülün o qəlbə şəfqət verən adına qurban olum. Qaytara bilərəmmi bununla sənə borcumu? Çürüsəm, bir ovuc torpağın artsa mənə, bizə, bütün soydaşlarımıza göstərdiyin o nəvazişin əvəzi olarmı? – Yox! Olmaz! Vətən anadır, Vətən namusdur. "Ana haqqı – Tanrı haqqıdır", – deyib Dədə Qorqud. Bu haqq ödənməz, ödənə bilməz! Ey ana Vətənim, ey ruhumun sevgi dolu titrəyişi, hər anım, hər dəqiqəm səninlə keçir. Sənsiz bir anımız olmasın, arzularımız, ümidlərimiz Azərbaycansız Xaliq dərgahına ucalmasın,



budur sənə ən saf niyyətim, budur ən gözəl sözüm. Bir söyləsənə mənə, ən ülvi duamdan, istəyimdən xəbərin varmı? Mən sənin nurunun, aydın, süd kimi ağ işığının cazibəsinə sevdalanmış eşq pərvanəsiyəm, təmənnasız sevgimdən xəbərin varmı? Yurdunun hər qarış guşəsində böyütdüyün övladların bu gün "Vətən", – deyir, ölənlərimiz əvəzinə, qalanlarımız "Vətən", – deyir. Beşikdən məzaracan hər anımız "Vətən", – deyir, "Vətən" söyləyir.

Ey qara donlu, dinsiz düşmən! Eşit və agah ol ki, azad, müstəqil Şuşamızda bu gün üçrəngli Azərbaycan Bayrağı dalğalanır. Qəhrəman oğullarımızın ayaq basdığı o torpaqlar günü-gündən müasirləşir, abadlaşır, inkişaf edir. Bir zamanlar köməksiz halda yurdundan, yuvasından didərgin saldığın soydaşlarımız yenidən qayıdır ata-baba yurdlarına. Xocalıdan, Xankəndidən, Ağdərədən, Ağdamdan "Azad Azərbaycan" şüarı səslənir. Bu səslər sənin qəlbinə hələ neçə illər dağ çəkəcək, yurduna od salıb, yuvanı viran qoyacaq. Ey mənfur düşmən, eşit və agah ol ki, dağlardakı toy-büsatın cəmi 44 günün içində yasa dönüb, matəmindən xəbərin varmı? Keçilməz dediyin sədlərin, istehkam məntəqələrin bir anın içində od olub başına yağdı, külündən xəbərin varmı? Fəxr edib, öyündüyün, döyüş meydanında qorxaq, hiyləgər tülkünü xatırladan ordun pərən-pərən düşdü, itkinindən, ötkünündən xəbərin varmı? Cəbrayıldan İrəvana "çəkdiyin yolunda" ot bitib, tikanlar göyərib, aciz halından xəbərin varmı? Qürrələndiyin millətin, dırnaqarası xalqın Azərbaycan əsgərinin köməyinə, bir içim suyuna, çörəyinə möhtac qaldı, dilənçindən, ac-yalavacından xəbərin varmı? Ey dinsiz, həyasız düşmən, eşit və agah ol ki, nə qədər ki Azərbaycan var, Azərbaycan xalqı da var olacaqdır. Nə qədər ki Azərbaycan xalqı var, Şanlı Ordumuz böyük qələbələrə imza atacaq, böyük zəfərlər qazanacaqdır. Bir sözlə, bil və agah ol ki, "dəmir yumruq" hələ də öz yerində, öz məqamında dayanıb!

*...Aman Allah! Yalvarıram sənə. Görülməmiş bir möcüzə göstər. Qaldır bir anlığa Xanı məzardan ölüylə-dirini üz-üzə gətir, qurtarsın yatanın canı məzardan. İxtiyar vaxtında, qoca yaşında, papaq başında. Görsün ki, Qarabağı necə azaddır, ellər tamaşası necə azaddır...*

✍ **Məcid RƏŞADƏTOĞLU**

**Əfsanəyə dönən ömürlər**

## Qürurun və kədərin ən gözəl təcəssümü – şəhidlik

*(esse)*

Düşüncələrinin ağırlığını daşıya bilmədiyi üçün yatdığı yerdən yavaşca qalxdı və pəncərəni açaraq budağından ayrılaraq yerə tərəf düşən saralmış yarpaqları seyr edirdi. Artıq payız ayları düşmüşdü təqvimin səhifələrinə. Sanki öz doğmalarından ayrılaraq həsrət çəkən analar kimi çarəsiz idi ağaclar, ya da elə öz doğmalarından əbədi ayrılanlar kimi. Dünəndən bəri yağan yağışın təsiri ilə torpaqdan yayılan o tanış qoxunu çəkdi ciyərlərinə. Pəncərəni bağladı və pencəyini geyinərək evdən çıxdı. Narın-narın yağan yağışın altında addımlamağa başladı, üzünə düşən hər yağış damlasında uşaqlığını xatırlayır, keçən zamana boylanırdı. Üzərində aramla addımladığı torpaq da onun üçün artıq daha müqəddəs, daha mənalı idi. O, ağacların altında düşüncəli addımlarla irəlilədikcə ömrünün səhifələrindən keçən illəri düşünürdü.



Zamanın necə keçdiyini bilmədən yarım saat sonra artıq getməli olduğu yerə çatmışdı. Sakit addımlarla sanki yatan kimisə narahat etməkdən çəkinirmiş kimi yeriyirdi. Buraya hər gəldikdə içində baş qaldıran o tanış hisslər yenə bütün bədənini sarmışdı. Sırayla düzülmüş, al qanları ilə tarixin səhifələrinə həkk olmuş bu müqəddəs şəhidlərin yanından keçdikcə sanki dünya onun üçün qaralırdı, amma əzəmətlə dalğalanan üçrəngli bayrağı gördükcə ayrıca fərəh və qürur hissləri bürüyürdü onu. Bir neçə məzar sonra Azərbaycanın üçrəngli bayrağının üzərində ucaldığı o məzarın qarşısında idi. Bu məzar canından daha çox sevdiyi, doğması, bayaq düşündüyü o uşaqlığının qəhrəmanı, qardaşının məzarı idi. Dilində qəlbini sıxan və demək istədiyi sözləri, gözlərində isə axıtmaq istədiyi yaşları var idi. Amma o ağlamaq istəmirdi, könlündən gələn o qəmli və qəhrli yaşları özü üçün saxlamaq istəyirdi. Daim mətin və başı dik duracaqdı. Qardaşının məzarı başında keçən dəqiqələr qəlbinə, ruhuna bir sakinlik gətirirdi.

Həmin anlarda nələr hiss etdiyini sözlə ifadə etmək, əslində, mümkünsüz idi. Kədərin qürurla qarışdığı o gün idi. Bəzən ağlında köhnə xatirələr canlanırdı. Nələri qurban verməzdi həmin anları yenidən yaşamaq üçün, yenidən qardaşının varlığını hiss etmək üçün. Bilirdi ki, qardaşı şəhid olsa da, daim qəlblərdə yaşayır. Bu hiss, bəlkə də, ona təskinlik verən yeganə hisslərdən idi.

Bəli, 27 sentyabr 2020-ci il tarixdə başlayaraq 44 gün davam edən və Azərbaycanın illərdir, düşmən tapdağı altında olan əzəli torpaqlarının azad edilməsi ilə nəticələnən Vətən müharibəsində şəhidliyə ucalan igidlərdən biri də onun qardaşı Ərtoğrul Hümbət oğlu Nadirli idi. Ərtoğrul 31 mart 1997-ci ildə Sədərək rayonunun Sədərək kəndində anadan olmuşdu. 2003-cü ildə kənd 1 nömrəli tam orta məktəbdə birinci sinifdə təhsil almağa başlamışdı. 2012-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olan Ərtoğrul liseyi əla qiymətlərlə bitirmiş və elə həmin ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu.

2019-cu ildə Ali Hərbi Məktəbi bitirərək leytenant rütbəsi almışdı. Əvvəlcə Qazax rayonunda sonra isə Goranboy rayonundakı "N" hərbi hissədə xidmətini davam etdirirdi. Ərtoğrul Nadirli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən ərazi bütövlüyümüzün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhadətə yüksəldi.

Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

O bütün bunları düşünüb nə qədər kədərlənsə də, əslində, hər kəs kimi o da qardaşı ilə qürur duyurdu. Vətənin azadlığı uğrunda düşmən üzərinə yüyürən, bütün arzularını, həyatını gözünü belə qırpmadan qurban verən düşmən tapdağı altında əzab çəkən torpaqlarımızı Azərbaycana yenidən qovuşdurmuşdu o igidlər. O, fikirlərindən ayrılıb saatına baxdı. Artıq 2 saata yaxın burada olduğunun fərqinə vardı. Qardaşı ilə yanaşı olan digər şəhidlər üçün də dua oxuyaraq sakit addımlarla ocaqları tüstülənən kəndin içərilərinə, evinə doğru yol aldı.

**Tərlan İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universitetinin*
*Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

## Ümumdünya Diabet Günü ilə bağlı "ASAN xidmət" Mərkəzində vətəndaşlar arasında könüllü səyyar tibbi müayinələr keçirilib

*Ümumdünya Diabet Gününün keçirilməsilə bağlı təklif Beynəlxalq Diabet Federasiyası və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dünyada diabet hallarının yüksəlməsinin qarşısını almaq məqsədilə 1991-ci ildə irəli sürülüb. O vaxtdan etibarən hər il 14 noyabr "Ümumdünya Diabet Günü" kimi qeyd olunur.*




Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Ümumdünya Diabet Günündə "Asan xidmət" Mərkəzində vətəndaşlar arasında könüllü səyyar tibbi müayinələr keçirilib. Burada vətəndaşlara ödənişsiz




xidmətlər göstərilib.

Aksiyada iştirak edən həkimlərdən Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinologiya şöbəsinin müdiri **_Aysel Dünyamalıyeva_** bildirdi ki, bu aksiyanın keçirilməsinin əsas məqsədi ictimaiyyəti şəkərli diabet xəstəliyi ilə tanış etmək, şəkərli diabet xəstəliyinin əlamətləri, simptomları və ağırlaşmaları barədə məlumat verməkdir. Təxminən, iki saata 300 nəfərdən artıq insan müayinədən keçib. İnsanların əksəriyyətində müayinə əsnasında şəkərli diabet aşkarlandı və müalicə üçün onları xəstəxanaya dəvət etdik. Yüksək risk qrupuna aid olan insanları qeydiyyata aldıq və təlimatlandırdıq.

Digər müsahibimiz layihəyə dəstək təşkilatçısı **_Ülviyyə Orucova_** dedi ki, bu layihə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəstəyi və iştirakı ilə baş tutur: – Nazirliyin layihəyə qoşulması, həqiqətən, çox gözəldir. Şəkərli diabetin erkən aşkarlanması çox vacibdir. Düşünürəm ki, bu aksiyaları davam etdirməliyik. Çünki bu xalqa xidmət deməkdir. Bu aksiyanı keçirdiyi üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə minnətdarlığımı bildirirəm.

Burada müayinədən keçirilən xəstələrə yaxınlaşdıq. Diabet xəstəsi olan **_Arzu Yaşar_** dedi ki, 29 ildir, bu xəstəlikdən əziyyət çəkir. Aysel həkimin sayəsində diabet xəstəliyi sabit saxlanılır. Bəlkə də, 29 il şəkərli diabetlə yaşamaq hər insana nəsib olmur.

Digər müsahibimiz **_Rəsmiyyə Abdullayeva_** da səyyar tibb müayinənin



təşkilindən razılığını bildirdi: – Bugünkü müayinə nəticəsində aşkarlandı ki, məndə bu xəstəliyə meyillilik var. Müayinədən əvvəl belə bir xəstəliyimin olduğundan xəbərdar deyildim. Vətəndaşlara göstərilən bu xidmətlərə görə "Asan xidmət" Mərkəzinin əməkdaşlarına və səhiyyə işçilərinə minnətdaram.

**Rafiq TƏHMƏZOV**
**Səkinə BAĞIROVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri***

### Həkimim

*Hörmətli oxucular! Bu saydan etibarən mütəmadi olaraq "Həkimim" rubrikası ilə oxucularımızı maraqlandıran sualları muxtar respublikadakı, həmçinin qardaş Türkiyə Respublikasının və paytaxt Bakıda yerləşən səhiyyə müəssisələrinin həkimləri cavablandıracaq, sağlamlığımızı qorumağımız üçün dəyərli məsləhətlər verəcəklər. Rubrikamızın ilk qonağı Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qəbul şöbəsinin müdiri, terapevt-həkim* ***Ramidə Bağırova****dır.*



***– Qripə yoluxma sağlamlığımız üçün nə dərəcədə təhlükəli sayıla bilər?***

– Tromb və ağciyər iltihabı bu xəstəlik zamanı olan əsas ağırlaşmalardandır. Xəstəliyin risk qruplarında ağır keçməsi, fəsadlaşması, arzuolunmaz nəticələrə səbəb olması mümkündür. Tibb mütəxəssisləri qripi ölümlə nəticələnə bilən infeksiya sayırlar.

***– Ev şəraitində respirator viruslardan qorunmaq üçün nələrə diqqət edilməlidir?***

– Qripin ən kiçik əlaməti hiss olunanda belə maska taxılması faydalı olar. Özünü təcrid etmək, bol maye içmək, otağın havasını dəyişmək və təmiz havada uzun zaman keçirmək xəstəlikdən sağalmağa yardımçı olur. Bu xəstəliyin müalicəsində reseptsiz dərman almaq istəyənlər həkim məsləhəti olmadan antibiotiklərdən istifadə etməməlidirlər. Antibiotik tərkibli dərmanlar bakteriya təməyüllü xəstəliklər zamanı həkim nəzarəti ilə tətbiq edilməlidir. Virus bakteriya deyil, antibiotik bakteriyaya təsir edir. Belə xəstəlik zamanı antibiotik kömək etmədiyi kimi, tromb əmələgəlmə riski yüksək olan xəstələrdə o, tromb təhlükəsini yarada bilər. Özbaşına müalicə həyati təhlükə yarada bilər. Ona görə də xəstəliklərinizin müalicəsi ilə bağlı qərarları həkimlərin verməsinə imkan yaradın ki, müalicəniz düzgün və effektiv olsun.

## Naxçıvanda nəşr olunan uşaq mətbuatı 9-cu Bakı Beynəlxalq Kitab Sərgisində

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində Ümummilli Lider Heydər



Əliyevin 100 illik yubileyinə həsr olunmuş 9-cu Bakı Beynəlxalq Kitab Sərgisi keçirilir. 11 ölkədən 30-dan çox xarici təşkilat, o cümlədən 109 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisənin iştirak etdiyi sərgidə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yeni nəşr olunan "Məktəbli" qəzeti də iştirakçılara təqdim olunub.

"Çinar Yayımları" nəşriyyat şirkətinin sponsorluğu ilə qəzetin noyabr ayı üçün nəşr olunmuş 2 min nüsxəsi ödənişsiz olaraq məktəblilərə paylanılıb. Qısa müddətdə məktəblilərin sevimli platformasına çevrilən və yüksək poliqrafik keyfiyyətdə nəşr olunan qəzet iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, sərgi bu gün başa çatacaq.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan-Bakı avtobusunda külli miqdarda narkotik aşkar edilib

İrandan tranzit keçməklə Naxçıvan-Bakı marşrutu üzrə hərəkət edən avtobusda külli miqdarda narkotik vasitələr və psixotrop maddə aşkar edilib.



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olmuş əməliyyat məlumatı əsasında İrandan tranzit keçməklə Naxçıvan-Bakı marşrutu üzrə hərəkət edən avtobusdakı sərnişinin üzərinə baxış keçirilib.

Yoxlama zamanı həmin şəxsin ayaqqabılarının içərisindən gömrük nəzarətindən gizlədilmiş külli miqdarda – 205,776 qram metamfetamin psixotrop maddəsi, 189,610 qram heroin və 4,93 qram metadon narkotik vasitələri aşkar edilib.

Faktla bağlı komitənin Əməliyyat-İstintaq Baş İdarəsində Cinayət Məcəlləsinin 206.3.2 (Qaçaqmalçılıq) və 234.4.1, 234.4.3 (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını əldə etmə, saxlama) maddələri ilə cinayət işi başlanıb və bir nəfər cinayət məsuliyyətinə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işinin istintaqı davam etdirilir, cinayətə aidiyyəti olan digər şəxslərin müəyyən edilib məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

*Yurdumuzun nemətləri*

## Meyvələrdən üç meyvə var...

Hər payız fəsli qayğısız uşaqlıq çağlarımın şirin xatirələri canlanır göz önümdə... Hər zaman o səhnəni xəyal edərkən o anı yaşayıram sanki... Böyük bir ailə, yeri torpaqdan olan kiçik bir otaq, torpaq üzərinə salınmış zolaqlı palaz, palaz üzərinə düzülmüş döşəkçələr... Hər kəsin öz döşəkçəsi var idi. Elə ki axşam oldu, hamı öz döşəkçəsi üzərində yer alar, babamın məktəb əhvalatlarından, müharibə xatirələrindən həyəcanla bəhs etdiyi söhbətlərə qulaq asardıq. Kiçik bir otaqda odun sobasının istisinə yığışar, saatlarla deyib-gülərdik. Onda hələ beş-altı yaşlarında balaca bir uşaqdım. Böyük bir ailənin ən kiçik üzvü olaraq həyatın qayğılarını dərk edə bilmirdim. Həyətimizdə bir neçə heyva ağacı var idi, nənəm axşam düşməmiş heyva ağacının altında yerə düşmüş heyvaları ləyənə toplayar, bumbuz axan çeşmədə onları yuyar, aşsüzənə yığardı. Elə ki axşam düşdü, hər kəs balaca bir otaqda yanan odun sobasının ətrafında toplaşarkən nənəmlə birlikdə heyvanı sobaya atar, közün üzərində bişirərdik. Nənəm həmişə heyvanı hər kəsə doğrayıb, mənə isə bütöv verərdi... Deyərdi ki, içindəki tumu da ye, onun ən yeməli, faydalı yeri tumudu.



O zamanlar insanların çörəklə sınandığı vaxtlar idi. Mən bunu o vaxt uşaq ağlımla dərk edə bilmirdim. İnsanlar həyətlərində olan nemətlərdən – tutdan, cəvizdən, heyvadan, almadan qışa azuqə saxlayardılar. Yaxşı xatırlayıram, stolumuzun üzərində hər zaman tut qurusu olardı, biz çayı qəndlə deyil, tut qurusuyla içərdik. Çünki o zamanlar qənd belə tapmaq çox çətin idi. Elə bişmiş heyva da axşam süfrədən yarıac, yarıtox qalxanlar üçün əziz nemət idi.

Məncə, elə bir insan tapılmaz ki, bərəkət simvolu, ruzi rəmzi olan heyvanı sevməsin. Heyva Azərbaycanda ən sevilən meyvələr sırasındadır. O, mahnılarda tərif olunur, ondan nağıllarda, rəvayətlərdə, dastanlarda söhbət açılır, müalicəvi faydaları haqqında tibdəki fikirlər bitməktükənmək bilmir. Azərbaycan folklorunda, qədim mədəni irsimizi təbliğ edən nağıllarda, xalq dastanlarında, rəsm əsərlərimizdə heyva ilə bağlı çoxlu nümunələr var.

Bəs payız mövsümündə yetişən və ilboyu saxlanılması mümkün olan, ağız dadı ilə yediyimiz heyvanın bizə nə qədər faydalı olduğunu bilirikmi? Elə isə heyvanın xalq təbabətində nə qədər qiymətli olmasına nəzər salaq. İnsan sağlamlığına faydaları saymaqla bitməyən bu meyvədən qədim xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə edilib. Onun özü, qabığı, tumları, hətta yarpağı və çiçəyi ayrı-ayrılıqda min bir dərdə şəfadır. Bir sözlə, bu meyvənin faydaları saymaqla bitmir.

Havaların soyuması ilə əlaqədar qeyri-ixtiyari soyuqdəyməyə yaxalanırıq. Bu xəstəlikdən qurtarmaq üçün dərman preparatları ilə yanaşı, çoxumuz təbii vasitələrdən də istifadə edirik. Onlardan biri də elə məhz heyvadır. Bu meyvənin unikal antivirus xüsusiyyətləri olduğu üçün ondan qrip və soyuqdəymənin müalicəsi zamanı geniş istifadə edirlər. Belə hallarda o, az miqdar suda bişirilir və qəbul olunur. Heyva şirəsi bronxit, bronxial-astma, müxtəlif soyuqdəymələr və iltihablar zamanı istifadə oluna bilər. Ondan skleroz, pankreatit, hipertoniya, anemiya və sair xəstəliklər zamanı da müalicə məqsədilə istifadə etmək olar. Heyva antioksidant maddələrlə zəngin olduğu üçün bu faydalı meyvə stres, depressiya zamanı, həmçinin xərçəng hüceyrələrinin əmələ gəlməsi ilə mübarizədə yaxşı təsir göstərir. Onun tumu ciyərlər üçün də olduqca faydalıdır. Heyva yarpağı və çiçəkləri soyuqdəymədə və mikrob əleyhinə mübarizədə istifadə edilə bilər. Xalq təbabətindən də məlum olduğu kimi, heyva tumunu alma çəyirdəyi və bal ilə birlikdə qarışdırıb məcun halında qəbul etsək və ya



su ilə qaynadıb içsək, öskürəkdən qurtularıq. Yarpaqlarından hazırlanan çay ürək ağrılarına yaxşı təsir edir və insanı sakitləşdirir. Həmçinin yarpaqlarını qaynadıb, suyu ilə qarqara etmək, yarpaqlarını isə boğaza kompres kimi qoymaq boğaz ağrısının və şişməsinin keçməsinə kömək edir.

Heyva, eyni zamanda dietik məhsuldur. Arıqlamaq məqsədilə tutulan pəhrizlər zamanı bu meyvədən istifadə effektiv təsir göstərir. Bu meyvə qədim zamanlardan kosmetik vasitə kimi də istifadə olunur. Belə hesab edilir ki, heyva qadının cavanlığını və gözəlliyini qoruyur.

İndi heyva mövsümüdür. Bərəkət rəmzi olan heyvanın ətri bazar piştaxtalarını bürüyüb. Dadlı mürəbbə bişirmək, cem və kompot hazırlamaq istəyənlər bu meyvəni səbətsəbət alırlar. Arandan ta uca dağ kəndlərinədək istənilən torpaq şəraitində bitərək barverən heyva Naxçıvanın qışı nə qədər sərt olsa da, möhkəm dözüm göstərir. Şaxtadan qorxmur. Çiçəkləyəndə tamaşasından doymaq olmur. Bəlkə, buna görədir ki, "Heyvagülü" rəqs havasını bu dadlı meyvənin çiçəkləyən vaxtındakı gözəlliyindən ilham alıb yaradıblar?..

**✍ Gülcamal TAHİROVA**

### İtmişdir

Naxçıvan şəhəri, Atatürk küçəsi döngə 6, ev 72-də yaşayan Səfərov Mütəllim Mustafa oğluna məxsus 75 BE 677 dövlət seriya nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Fariz Əhmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 659